**Ş.T.Bünyadova**
Bakı Dövlət Universitetini
Shirin_bunyad @mail.ru

# AZƏRBAYCAN ATALAR SÖZLƏRİNDƏ BAYRAMLAR, OYUN VƏ ƏYLƏNCƏLƏR

***Açar sözlər:*** *Azərbaycan, atalar sözləri, bayram, oyun, əyləncə*
***Ключевые слова:*** *Азербайджан, пословицы, праздник, игры, развлечение*
***Key words:*** *Azerbaijan, proverbs, festivities, games, entertainment*

Təqdim olunan məqalə Azərbaycan xalqının atalar sözlərində mövcud olan bayramlar, oyun və əyləncələrlə bağlı elmi araşdırmaya həsr olunmuşdur. Azərbaycan etnoqrafiya elminin inkişafında folklorun müxtəlif janrlarında mövcud olan zəngin materialların yardımçı mənbə qismində tədqiqata cəlb olunmasının mühüm əhəmiyyəti danılmaz faktdır. Şifahi xalq yaradıcılığının izlərilə yola çıxsaq, bu geniş ümmanda xalqımızın mənəvi dünyasını canlandıran xeyli materiala rast gəlməyin mümkün olduğunu görərik. Folklorun bir janrı kimi Azərbaycan xalqının zəngin atalar sözlərində xalq bayramlarımız, oyun və əyləncələrimiz haqqında maraqlı xatırlatmaların olduğunu görmək mümkündür. Bu bizə xalqımızın minilliklərdən bəri formalaşıb gələn zəngin mənəvi mədəniyyəti barədə fikir söyləməyə geniş imkan yaradır. Atalar sözlərinin etnoqrafiyadakı əhəmiyyətini vurğulayan E.Teylor qeyd edir ki, müasir dilimizə irsən keçən qədim atalar sözlərinin müdrikliyi qədimlərdə olduğu kimi indi də aydın və davamlıdır (11, 76-77).

İlk növbədə əsrlərin sərhəddini aşıb gələn xalq bayramlarımız haqqında diqqəti cəlb edən məsələlərə yer verək. Məlumdur ki, insanların daxili dünyasını özündə ehtiva edən, canlı və cansız aləmə münasibətini əks etdirən, onun şüurunu, əxlaqını, vərdişlərini, iradəsini göstərən mənəvi mədəniyyət minilliklərə damğa vuraraq təkmilləşmiş və inkişaf etmişdir. Bu günkü nəsillərə əmanət qalan mənəvi mədəniyyətin tərkib hissələri bayramlardan, oyun və əyləncələrdən, dini baxışlardan, elmi biliklərdən, müxtəlif adət-ənənələrdən və sairədən ibarətdir. İnsanlar mənsub olduqları cəmiyyətin təfəkkür tərzini, zəmanənin dünyagörüşünü gündəlik həyatda əks etdirərək dövrə uyğun şəkildə yaşatmışlar. Lakin mənəvi aləmin təzahürü olan mədəniyyət elementlərində hörmət, səmimiyyət, qonaqpərvərlik, yardımsevərlik, şəfqət kimi yüksək keyfiyyətlər bütün dövrlər üçün eyni mahiyyət daşımışdır. Bu keyfiyyətlər bariz nümunəsini müxtəlif bayramlarda, oyun və əyləncələrdə tapmışdır. Bir sözlə, bütün bunlar gələcək nəsillər üçün miras qalmışdır. Bu miras sağlam təməl üzərində yarandığından gələcəkdə də mükəmməl şəkildə mühafizə olunacaqdır. Mənəvi mədəniyyət insani münasibətlərdə müştərək yaşamanın mövcud qanunlar çərçivəsində mümkünlüyünü gerçəkləşdirir və ümumbəşəri əxlaqi dəyərlərə söykənir.

Nəzər diqqəti cəlb edən məsələ budur ki, atalar sözlərimizdə xalqın həyatında bambaşqa, müstəsna rolu olan bayram kimi məhz Novruz haqqında müəyyən xatırlatmaların varlığı maraq doğurur. Bu isə digər bayramlardan fərqli olaraq yazın gəlməsi ilə keçirilən Novruzun xalqımızın mədəni-məişət həyatında nə qədər dərin izlər buraxdığını açıq-aşkar göstərən xüsusiyyətdir. Belə ki, təbiət hadisələri insanları hələ qədim zamanlardan düşündürmüşdür və onların həyatına bu və ya digər şəkildə təsir etmişdir. Yaz vaxtı təbiətin oyanması ilə əlaqədar olaraq əkinə başlamağın mümkünlüyü, çay suyunun daha da artaraq suvarmada böyük əhəmiyyət kəsb etməsi, gecə-gündüz bərabərliyi və digər məsələlərlə bağlı insanların müşahidələri genişləndikcə əsrlər boyunca qazandıqları təcrübələri də get-gedə artmışdır. Elə bunun nəticəsində də təbiətin özündən doğan xüsusiyyətlərin təsirilə xalq arzu və istəklərini müxtəlif bayramlar vasitəsilə həyata keçirməyə can atmışdır.

Aydın məsələdir ki, mənəvi mədəniyyəti bayramlarsız təsəvvür etmək mümkün deyildir. Xüsusən bütün dövrlərin məişətində onların özünəməxsus yeri olduğunu qeyd etmək vacibdir. Belə ki, ən çox oyun və əyləncələrin icra olunduğu bir mərasim kimi bayramlar bütün insanlar tərəfindən həvəslə qeyd olunmuşdur. Bayramlar eyni zamanda özlərində müxtəlif ayinləri ehtiva etmişdir. Təsadüfi deyildir ki, orta əsr mənbələrində də tez-tez onların adları çəkilir və barələrində müəyyən qədər də olsa, məlumat verilir. Hətta orta əsrlərdə ölkəmizdə olan Avropalı səyyahların hesabat xarakterli yazılarında da bayramlar barədə məlumatlar verilmişdir.

Qonaqpərvərlik adəti xüsusən bayram mərasimlərində özünü qabarıq göstərirdi. Öz zənginliyi və rəngarəngliyi ilə seçilən Novruz bayramı mərasimlərində Hollandiya dənizçisi Yan Streys də iştirak etmişdir. Dənizçi azərbaycanlıların Novruz bayramını necə qeyd etdiklərindən söhbət açır. O, eyni zamanda qonaq olduğu xanın açdığı süfrənin təsvirini verir. Bununla yanaşı, müəllif daha sonra yazırdı ki, bizim zadəganlar, mən də onlarla birlikdə, gah bu, gah da digər azərbaycanlının yanına yeməyə qaçırdıq və möhkəm əmin idik ki, müsəlmanların yemək-içməyi ilə bizim boş, ac qarınlarımız arasında din ayrılığı barədə heç bir narazılıq yaranmayacaq (9, 290).

Onu qeyd etmək lazımdır ki, atalar sözlərində rast gəldiyimiz əsas məlumatlar sırf Novruz bayramı ilə əlaqədardır. Görünür, bu onlan irəli gəlir ki, qədim tarixə malik olan bu bayramın xalqımızın həyatında oynadığı rol böyük olmuşdur. Xalqımıza xarakterik olan bütün yaxşı keyfiyyətlər məhz bu bayramla bağlıdır. Hətta bayramla əlaqədar orta əsr müəllifinin qeydləri maraq doğurur. Qeyd etmək kifayətdir ki, Q.Təbrizi, X.Şirvani, N.Gəncəvi, İ.Nəsimi kimi şairlərimizin yaradıcılığında Novruzla bağlı xatırlatmalar mövcuddur.

Atalar sözlərində yazın bar gətirməsi ilə əlaqədar deyilir ki, «qışın çəni qar gətirər, yazın çəni bar gətirər» (6, 113). Elə bu səbəbdən də Novruz bar gətirən olduğundan yazda keçirilən bayram kimi təntənəli şəkildə qeyd edilmişdir. Qışdan cıxmaqla öz sevincini yaşayan insanların zamanla yeni çalarlar qatdığı bayram şənliyi özünəməxsus şəkildə icra xüsusiyyətlərinə malik olmuşdur.

Bu bir həqiqətdir ki, «bayramlar topluma pozitiv təsir edir, müəyyən zaman içində toplumu ritual kontekstinə salır, inanc duyğularını gücləndirir. Bayramlar erkən çağlardan etibarən, insanın təbiətə, təbiət hadisələrinə münasibətinin bildiriş vasitələrindən biri olmaq etibarilə sonralar cəmiyyətin həyatı ilə birbaşa bağlı olub, onun həyatında baş verən hadisə və proseslərin özünəməxsus inikas formalarından birinə çevrilmişdir. Xalq tərəfindən təntənəli şəkildə qeyd olunan hər bir bayram insanlar üçün müəyyən məna və mahiyyət kəsb etmişdir» (2, 13). Bu cəhət təbii olaraq folklorun müxtəlif janrlarına, eləcə də atalar sözlərinə sirayət etmişdir.

Novruz bayramının maraqlı əyləncə hissəsi məhz keçəl və kosa obrazları ilə bağlıdır. Atalar sözlərində bu obrazlar haqqında belə deyimlər mövcuddur: «kosa kəndə girməmiş gəraylısını başladı», «kosa getdi saqqal gətirə bığını da qoydu gəldi», «hərə bir tük versə, kosa da saqqallı olar», «gah qul olar satılar, gah çıxar taxta kosa», «keçələ kosa qənim olsun», «keçəli papağının yanından tanımaq olar» (1, 114;115). Bütün bu deyilənlərdə Novruz bayramı ilə bağlı maraqlı məqamlar ortaya çıxır. Deyilən fikirlərdən aydın olur ki, bayramda el şənliyi keçirilən zaman kosa gəraylı oxuyurmuş. Ümumiyyətlə, oyunların bəzilərinin musiqinin müşayiətilə keçirildiyi qeyd edilir (5, 166). Təntənəli mərasim zamanı kosanın saqqal gətirməyə gedərkən bığını da qoyması zarafatyana tərzdə deyilən sözlərdir. Tükü az olan adamlara adətən kosa deyilir. Burada heç şübhəsiz, kosanın istifadə etdiyi taxma vasitələrdən bəhs edilir. Qul olub satılması tamaşanın gedişi əsnasında təqdim olunan göstərilər ilə bağlıdır. Kosanın taxta çıxmaq məsələsi üzərində isə bir qədər fikir yürütmək mümkündür. Çünki belə deyilir ki, Novruz bayramı zamanı hökmdar taxtdan enər və onun yerinə ölkəni başqa adam idarə edərdi. Bu barədə əlimizdə əsaslı mənbənin olmaması qeyd olunan fikri təsdiq etməkdə çətinlik törədir.

Novruz bayramının personajları kimi məşhur olan bu obrazlar bayram zamanı keçirilən kütləvi mərasimin əsas iştirakçılarından sayılırdılar. Bu xüsusda E.Aslanov yazır: «qədim şaman-qam sənəti və əsgi çağların inamları ilə bağlı olub qocalmış günəş tanrısının yer üzündəki əvəzini təmsil edən bu surət sonralar, mərasim tamaşalarında köhnə il və qış fəslinin şikəst və çirkin bir obrazında təcəssüm olunurdu. Bu rolda çıxış edən hər bir oyunçu özünü bu surətin varisi sayır, bu işi nəsildən-nəsilə ötürürdü» (4, 110). Deməli, novruz bayramında onların iştirakı vacib sayılmış və bu bir ənənə şəklini almışdı. Müasir dövrdə də Novruz zamanı keçəl və kosa obrazlarının iştirakı xüsusi rövnəq qataraq bayramın vacib elementlərindən biri sayılır.

İnsan həyatı əyləncələrdən xali deyildir. Qeyd edək ki, «ümumiyyətlə, oyunlarda (əsasən tamaşalarda) insan mənəviyyatına və ictimai əxlaq normalarına münasibət təcəssüm olunurdu. Bəzi oyun növləri mühitin eybəcərliklərini təcəssüm etdirməklə onlara gülür və bu gülüşlə də həmin hallara qarşı tamaşaçılarda nifrət, ikrah hissi yaradırdı. Belə oyunlar böyük ictimai xarakter daşımışdır» (3, 130). Ə.Qasımov haqlı olaraq qeyd edir ki, «oyun gerçək həyat hadisələrinin tanınan modelidir» (8, 61). Aydın məsələdir ki, oyunlar təbiət və cəmiyyət hadisələrinə münasibəti özündə birləşdirir.

Əyləncələr onların məişət tərzini yeknəsəklikdən ayıraraq daha da həyacanlı olmasını, şən keçməsini təmin etmiş olur. Bu baxımdan da onlar xalq məişətinin ayrılmaz hissəsi kimi atalar sözlərinə də müəyyən qədər sirayət etmişdir.

Atalar sözlərində əyləncəvi oyunlar barədə bir sıra məlumatlar mövcuddur. Atalar sözlərindəki «orta oyunu orta yerdə oynanar» deyimi maraq doğurur (1, 150). Burada eyniadlı oyun növünün adı çəkilmişdir. Bu oyun növü əsasən Azərbaycanın qərb bölgələrində yayılmışdır. Elmi cəhətdən diqqəti cəlb edir ki, «mənbələr bu oyunu «ortalıq oyunu», «həlqə oyunu», «ovsətoyunu», «çevrə oyunu» və «çadıroyunu» adları ilə də qeyd edirlər» (4, 165). Müxtəlif adlarla təqdim olunması oyunun ola bilsin ki, ayrı-ayrı bölgələrimizdə və hətta geniş arealda ona münasibətlə bağlıdır. İnsanların eyni mahiyyətli oyunlara başqa adlar verməsi tarixən mövcud olan xüsusiyyət göstəricisidir.

Fala baxmaqla məşğul olan adamlara rəmmal deyilirdi. Rəmmalın adı atalar sözlərində də çəkilir (1, 56). Bu cür adamlar başqalarını qum üzərində müxtəlif işarələr çəkməklə və digər vasitələrlə gələcəyi gördüklərinə inandırmağa çalışırdılar. Rəml atmaq kəlməsi dilimizdə işlənmişdir. Bu az da olsa, qədimlərdə rəmmal adlanan falçıların olduğunu təsdiqləyir. Müasir dövrdə də kartla fala baxanlar vardır. Atalar sözlərində ifadə olunan belə bir eyham «kitabı satıb, gəncəfə alıb» şəklində təzahür edir (1, 21). Əslində burada vurğulanan fikir kitab kimi dəyərli bir şeyin əvəzinə əyləncələrdə istifadə olunan gəncəfə (kart) alınmasından ibarətdir. Bu da qəbuledilməz xüsusiyyət kimi qınaq obyekti olmuşdur. Bu ifadə bizə kart oyununun olduğunu təsdiq etmək imkanı verir.

Azərbaycanda yayılan oyun növlərindən biri də nərd olmuşdur. Atalar sözlərində «nərdə qurşanan dərdə qurşanar» - deyimi maraq doğurur (7, 134). Yəni burada o fikir özünü göstərir ki, nərdə aludə olan adam ondan ayrıla bilməz. Azərbaycanda nərd oyunu geniş yayılmış bir əyləncə kimi orta əsr şairlərimizin yaradıcılığında da izlənilir. Hələ Nizami Gəncəvi dövründə onun oynanılması məlumdur (3, 137). Bu oyunun daha qədimlərdən məlum olması isə danılmaz faktdır. M.Dadaşzadə yazır: «sasanilərdən sonra şahmatla birlikdə nərd oyunu da ərəblərin qəbul etdikləri və sonralar geniş yaydıqları oyunlardan olmuşdu» (10, 190). Müəllifin bir sıra mənbələr əsasında nərdin Əhəmənilər dövründən məlum olduğunu söyləyənlər haqda qeydi bu oyunun daha qədim tarixi barədə fikir söyləməyə imkan yaradır. Hətta nərdin zərdüştlüklə əlaqələndirildiyi fikrinin də ortaya qoyması maraq doğurur. M.Dadaşzadə mənbəyə əsaslanaraq (M.Müdərrəsi) belə qeyd edir ki, «nərdin taxtası yer, otuz möhrə isə gecə-gündüzün simvoludur. On beş möhrə gündüz, on beşi isə gecəyə işarədir. Zərlərin xalları isə belə izah edilir: bir xal Ahuraməzdaya işarədir. İki xal göy və yerə, üç xal isə yaxşı danışmaq, yaxşı düşünmək və xeyirli əməl etmək kimi zərdüştlüyün əsas şüarına işarədir. Dörd xal cəhətlər və beş xal da günəş, ay, ulduz, od və ildırımın simvolu olan beş işığa işarədir. Altı xal isə zərdüştlüyün altı böyük bayramı - kahanbarlara işarədir» (10, 191). Fəqət bu deyilənlər bir fikirdir. Oyunun dəqiq tarixini müəyyən etmək çətinlik törədir.

Beləliklə, şifahi xalq yaradıcılığının bir janrı olan atalar sözlərində xalqımızın mənəvi dünyasının izlərini daşıyan bayramlar, oyun və əyləncələr barədə mövcud material əsasında araşdırma təqdim olundu. İnsanların yaşam biçiminin ayrılmaz hissəsi olan mərasimlər, ayinlər vasitəsilə gerçəkləşən el-oba şənliklərinin, real həyat

həqiqətlərinin atalar sözlərinə sirayət etdiyi vurğulandı. Atalar sözlərinin Azərbaycan xalqının etnoqrafik aləmini əks etdirməsi baxımından əhəmiyyəti göstərildi. Tədqiqat folklor və etnoqrafik nöqteyi-nəzərdən mənəvi irsimizin dərindən təhlili üçün əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**


1. Atalar sözü (top. Ə.Hüseynzadə). Bakı, Yazıçı, 1981, 336 s
2. Əhməd Ə. XII–XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. Bakı, Elm, 2012, 368 s
3. Bünyadova Ş. Nizami və etnoqrafiya. Bakı, Elm, 1992, 156 s
4. Aslanov E. El-oba oyunu xalq tamaşası. Bakı, İşıq, 1984, 276 s
5. Məmmədova T. Uşaq oyunları haqqında. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. 4 kitab. Bakı, Elm, 1973, s 164-172
6. Sözlü, nağıllı gecələr (toplayıb tərtib edən Loğman Ağalı) Bakı, İşıq, 1991, 120 s
7. Xalqımızın deyimləri və duyumları. (top.Həkimov M.İ.) Bakı, Maarif, 1986, 392 s
8. Qasımov Ə. Azərbaycan xalq oyunları. Bakı, BDU, 2006, 187 s
9. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. Bakı, Elm, 2012, 384 s
10. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. B 1985, Elm, 216 s
11. Тейлор Э.Б. Первобытная культура (перевод с англ.). М, Политиздат,1989, 573с


**Festivities, games and entertainments in Azerbaijan proverbs**

**Summary**

Proverbs as a genre of folklore have a very bright quality. They express not only the thoughts, attitudes and customs of the people, but including life. They reflect elements of spiritual culture. The proverbs of Azerbaijan people said about the holidays, about the games and entertainment. They can find information about the characters (Spit and Kechial) Novruz holiday. Since ancient times in Azerbaijan widely spread backgammon game in question and proverbs. About Backgammon recalled more Nizami Ganjavi in XII century. The proverbs have information about the game Orta Oyunu. She played the western part of Azerbaijan. The proverb says, and about maps.

Analyzing the proverbs from the scientific point of view it can be concluded that, according to their data, you can speak about the spiritual culture of the Azerbaijan people. The above explanations suggest that the proverb as a source for the study of the Azerbaijan people's life and culture are of great importance to the ethnographic point of view

**Праздники, игры и развлечения в азербайджанских пословицах**

**Резюме**

Пословицы как жанр фольклора обладают очень ярким качеством. Они выражают не только мысли, мировоззрение и нравы народа, но в том числе и быт. В них отражаются элементы духовной культуры. В пословицах Азербайджанского народа говорится о праздниках, об играх и развлечениях. В них можно найти сведения о персонажей (коса и кечял) праздника Новруз. С древних времен в Азербайджане широко распространился игры в нарды о котором идет речь и в пословицах. О нардах вспоминал еще Низами Гянджеви в XП веке. В пословицах есть сведения об игре орта оюну. Ее играли западной части Азербайджана. В пословицах говорится и о картах.

Анализируя пословиц с научной точки зрения можно прийти к выводу что, по их данным можно высказаться о духовной культуре Азербайджанского народа. Указанные выше объяснения говорят о том что, пословицы как источник по изучению быта и культуры Азербайджанского народа имеют большое значение с этнографической точки зрения.